## Kazus 1

1991-ci ilin Bolqarıstan Milli Təhsil Qanununa uyğun olaraq, yalnız Bolqarıstan vətəndaşları və əcnəbilərin müəyyən kateqoriyaları pulsuz təhsil almaq hüququna malikdirlər. İddiaçılar A və B Bolqarıstanda anası ilə yaşayan iki Rusiya vətəndaşı olan şəxslərdir. A və B-nin analarının Bolqarıstanda daimi yaşayış icazəsi var idi və ərizəçilər anaları ilə birlikdə yaşamaq hüququna malikdirlər. Lakin ərizçilərinməhz özlərinin daimi yaşayış icazələri olmadıqları üçün onlar təhsil almaqlarına görə 800 və 2600 avro məbləğində ödəniş edirdilər. A və B (ərizəçilər) daimi yaşayış üçün icazə almış əcnəbilər və Bolqar vətəndaşları ilə müqayisədə ayrı-seçkiliyə məruz qaldıqlarını iddia edirlər. Onlar AİHM-nə AİHK-nın 14-cü maddəsinin Bolqarıstan dövləti tərəfindən pozuntusu iddiası ilə şikayət etmişdirlər.

*(Ponomaryov Bolqarıstana qarşı iş, 2011-ci il)*

## Kazus 2

Xanım Eyrinin əri əvvəllər arvadını (X. Eyri) dəfələrlə döydüyünə görə ittiham olunmuşdur. Sonra isə o, evini qoyub evdən getmişdir və ailəsinə (evinə) qayıtmayacağını bildirmişdir.
Xanım Eyri əri ilə İrlandiyanın milli qanunvericiliyinə görə boşana bilməzdi. Yalnız ailədə ər və arvadın ayrı yaşamaqları haqqında razılaşma imzamaqları mümkün idi. Eyrinin əri sazişi imzalamaqdan imtina edirdi və Eyri bu sazişi məhkəmə yolu ilə qazanmağa çalışırdı. Bu məsələ üzrə qərarı yalnız İrlandiyanın Ali Məhkəməsi verə bilərdi. Lakin Eyrinin maddi vəziyyəti Ali Məhkəməyə müraciətin xərclərini ödəməyə imkan vermirdi və o, hüquqşünaslarla bir çox danışıqlar aparmışdır və heç kim ona pulsuz yardım göstərmək istəmirdi. Milli qanunvericilikdə isə həmin məsələyə görə pulsuz hüquqi yardım nəzərdə tutulmamışdır.
Eyri qeyd edirdi ki, əvvəllər əri tərəfində dəfələrlə döyüldüyü zaman Dövlət onun hüququnu qorumayıb, indi isə Dövlət onun artıq dağılmış ailəsində əri ilə ayri yaşamaqları haqqında qərarı almaq hüququnu onun əlindən alır.

*(Eyri İrlandiyaya qarşı iş, 1979-cu il)*

*Hazırladı: Vəfa Rüstəm*